# Çətin sınaqlarda möhkəmlənən qardaşlıq salnaməsi

**Əsrlərə söykənən ortaq tarix və mədəni miras əsasında formalaşan Azərbaycan-Türkiyə qardaşlığı "bir millət, iki dövlət" konsepsiyası ilə qlobal miqyasda nümunəvi strateji tərəfdaşlıq modeli kimi çıxış edir. Mədəni, dil və tarixi bağlar iki ölkə arasında qarşılıqlı inam və siyasi koordinasiyanı gücləndirərək geosiyasi müstəvidə ortaq maraqların və təhlükəsizlik prioritetlərinin formalaşmasına şərait yaradıb. Hər iki ölkənin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə prinsipial dəstək xüsusilə də regional münaqişələrin həlli və yeni geoiqtisadi reallıqların formalaşması baxımından əməkdaşlığı daha da dərinləşdirir.**

Azərbaycan-Türkiyə münasibətlərinin institusional təməli XX əsrin əvvəllərində qoyulub. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra Türkiyənin Şərqin ilk demokratik respublikasını tanıması diplomatik əlaqələrin qurulmasına səbəb olub. Həmin il Bakının erməni-daşnak qüvvələrinin işğalından azad olunması məqsədilə Türkiyənin göndərdiyi Qafqaz İslam Ordusu və onun baş komandanı Nuru Paşanın fəaliyyəti bu baxımdan mühüm əhəmiyyət kəsb edir, səmimi qardaşlıq niyyətinin parlaq nümunəsi kimi qiymətləndirilir. Lakin Sovet hakimiyyəti dönəmində iki ölkə arasındakı münasibətlər əsasən qeyri-rəsmi və məhdud çərçivədə davam edib. Müstəqilliyin ilk illərində Türkiyənin Azərbaycana siyasi, diplomatik və iqtisadi dəstəyi bütövlükdə Türk dünyası üçün inteqrasiya modelini formalaşdırıb.

**(davamı 5-ci səhifədə)**

# Çətin sınaqlarda möhkəmlənən qardaşlıq salnaməsi



(əvvəli 1-ci səhifədə)

1990-cı illərin sonlarından etibarən Türkiyənin Azərbaycanın bir sıra sahələrinə, xüsusilə enerji və infrastruktur sektorlarına maliyyə ayırması geoiqtisadi inteqrasiya və regional əməkdaşlığın dərinləşdirilməsi baxımından böyük önəm daşıyır. Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Bakı-Tbilisi-Ceyhan (BTC) kimi transmilli enerji layihələrinin reallaşdırılması Azərbaycanın enerji ehtiyatlarının Avropa bazarlarına çıxışını təmin etməklə yanaşı, Türkiyənin də enerji tranzit mərkəzinə çevrilməsi prosesində mühüm rol oynayıb, qarşılıqlı iqtisadi asılılıq və siyasi harmoniyanın gücləndirib. Müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq isə Azərbaycan-Türkiyə münasibətlərinin digər vacib sütununu təşkil edir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyi münasibətlərin qardaşlıq səviyyəsindən strateji müttəfiqlik səviyyəsinə yüksəldiyinin sübutudur. Qardaşlıq və dostluq münasibətləri Türk dünyasının inteqrasiyası üçün nümunə, Qafqazdan Aralıq dənizi və Mərkəzi Asiyaya qədər uzanan geniş geosiyasi məkan üçün sabitlik, inkişaf və ortaq maraqlar üzərində qurulan yeni əməkdaşlıq platformasının əsasıdır.

2023-cü il fevral ayının 6-da Türkiyə ərazisində baş verən seysmik hadisə regional sərhədləri aşaraq qlobal miqyasda təsir dairəsi ilə seçilən və nəticələrinə




görə son dərəcə dağıdıcı olan geoloji fəlakətlər sırasında yer tutur. Zəlzələnin episentri Kahramanmaraş şəhəri olmaqla, ardıcıl və çox yüksək amplitudaya malik 7,7 və 7,6 bal gücündə iki böyük seysmik silkələnmənin yaranması, 53 537 nəfərin həyatını itirməsinə və 107 213 nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri ilə almasına səbəb olub.

Faciədə insan tələfatı ilə yanaşı, təqribən 38 901 yaşayış və qeyri-yaşayış obyekti tamamilə məhv olub, hadisənin təsir zonası 11 vilayət, 124 rayon, 6929 kənd və məhəlləni əhatə edib. Zəlzələ nəticəsində 120 000 kvadrat kilometrdən çox sahə seysmik təsirə məruz qalaraq, təxminən 14 milyon nəfərin yaşayış və sosial-məişət şəraitində fundamental dəyişikliklərə yol açıb. Bu parametrlər əsasında sözügedən hadisə həm insan itkisi, həm də ekoloji və infrastruktur zərərlərin miqyası baxımından, beynəlxalq təbii fəlakət statistikalarında ən ağır kateqoriyaya daxil edilə bilər. Fəlakət yalnız Türkiyə əhalisinə deyil, həm də Azərbaycan xalqına dərin psixoloji və emosional təsir göstərdi. Azərbaycan cəmiyyəti hadisəni öz milli faciəsi kimi qəbul edərək humanitar dəstək və yardım kampaniyalarının təşkili istiqamətində genişmiqyaslı və intensiv fəaliyyətlərə başladı. Belə ki, cəmiyyətin müxtəlif təbəqələrindən olan şəxslər təşəbbüslərə qoşularaq ərzaq və məişət ləvazimatlarını qardaş türk xalqına göndərdilər.

Həmrəylik nümunəsi, regional və qlobal humanitar əlaqələr çərçivəsində xüsusi təhlil obyektinə çevrilib. Beynəlxalq ictimaiyyət "bir millət, iki dövlət" ifadəsinin sadəcə siyasi fikir olmadığını, əksinə, real hadisələrdə dərin mənəvi və sosial bağlarla müşahidə olunan sarsılmaz gerçəkliyini qəbul edib. Türkiyədə yaşayan qardaşlarımız Azərbaycanın dəstəyini ümumi etnik və mədəni köklərə malik ortaq taleyi paylaşan millətin yardım kimi dəyərləndirirlər. Bu qardaşlıq həm maddi resursların, həm də mənəvi kapitalın bölüşdürülməsi aspektində əhəmiyyətli və unikal nümunə olaraq tarixdə qalacaq.

Sosial və siyasi səviyyədə də fəlakət anında Azərbaycan xalqı və dövlət qurumları arasında möhkəm vəhdət və qarşılıqlı dəstək mexanizmləri meydana çıxıb. Xalqın nümayiş etdirdiyi fədakarlıq və həmrəylik dövlət institutlarının mobilizasiyası və resursların koordinasiyalı səfərbərliyi ilə tamamlanıb. Dövlət səviyyəsində həyata keçirilən operativ humanitar yardım ərazilərin bərpası və zərərçəkmişlərin ehtiyaclarının təmin olunması istiqamətində məqsədyönlü və metodoloji cəhətdən sistematik tədbirlər planı icra edilib.

Hazırda ölkəmiz Kahramanmaraş vilayətində həyata keçirilən humanitar fəaliyyətlərini davamı kimi bölgədə yenidənqurma və bərpa proseslərində, o cümlədən sosial infrastrukturların inşasında fəal iştirak edir. Türkiyənin Kahramanmaraş vilayətində inşa edilən "Azərbaycan" yaşayış məhəlləsinin ümumi sahəsi 32 hektara bərabərdir. Layihə çərçivəsində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzi daxil olmaqla kompleks infrastruktur nəzərdə tutulub, 71 yaşayış binasının tikintisi planlaşdırılıb. Həmin binalarda 2, 3 və 4 otaqlı ümumilikdə 1323 mənzil olacaq. Bundan əlavə, sakinlərin məşğulluğunun təmin olunması məqsədilə 799 qeyri-yaşayış (ticarət)



sahəsi yaradılacaq. Layihənin 100 milyon ABŞ dolları dəyərində olan hissəsi Azərbaycan hökuməti tərəfindən maliyyələşdirilir. Kahramanmaraş şəhərinin 7, 8, 11 və 12 saylı məhəllələrində tikinti işləri artıq başa çatıb. Modern memarlıq üslubunda inşa edilən binalar günəş panelləri ilə təchiz olunub. Dörd bloklu 26 yaşayış binası yaxın vaxtlarda sakinlərə təhvil veriləcək. Bu binalarda ümumilikdə 456 mənzil və 328 qeyri-yaşayış obyekti mövcuddur. Yeni qəsəbə həmçinin müxtəlif ticarət və sosial obyektlər, parklar, istirahət zonaları və uşaq meydançalarını da əhatə edir. Yaxın zamanda Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə məhəllələrin açılışı baş tutacaq və bu təşəbbüs iki ölkə arasında əməkdaşlığın və qarşılıqlı etimadın dəstəyi kimi gələcəkdə də regional sabitlik və rifahın möhkəmlənməsinə töhfə verəcək.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2025.- 11 iyun (№118).- S.10.